# HÜSEYNZADƏ ÇİNGİZ MUXTAR OĞLU
# (1951)
# Dilçi

21 iyul 1951-ci ildə anadan olmuşdur. 1969-1975-ci illərdə BDU-nun Şərqşünaslıq fakültəsində təhsil almışdır. 1977-1988-ci illərdə AMEA Nəsimi adına Dilçilik İnstitutunda çalışmışdır. 1988-ci ildə "XIII əsrə qədərki orta əsrlər ərəbdilli yazılı abidələrdə türk mənşəli antroponimlər" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1990-1992-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində işləmişdir. 1993-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər idarəsi elm sektorunun müdiri, 1993-1997-ci illərdə Azərbaycan Respublikası Prezident Administrasiyasının Humanitar siyasət şöbəsində məsləhətçi vəzifələrində çalışmışdır.
2005-ci ildə "Azərbaycan dilində morfoloji norma" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 100-ə yaxın elmi əsəri vardır. "Azərbaycan dilində morfoloji norma", "Dil norması və kriminalistika" (həmmüəllif), "Orta əsrlər ərəbdilli yazılı abidələrdə türk mənşəli antroponimlər" adlı monoqrafiyaların müəllifidir.
2007-ci ildə «Şöhrət» ordeni ilə təltif olunmuşdur.
1997-ci ildən Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin və İslam Həmrəyliyi İdman Federasiyasının vitse-prezidenti, Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, "Olimpiya" jurnalının baş redaktorudur.